AZƏRBAYCAN TİBB JURNALI
AZERBAIJAN MEDICAL JOURNAL

# AZƏRBAYCANDA OFTALMOLOGİYA ELMİNİN İNKİŞAFINDA VƏ OFTALMOLOJİ XİDMƏTİN TƏŞKİLİNDƏ AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN ROLU

***(anadan olmasının 100-illiyi münasibətilə)***



Azərbaycan tibb ictimaiyyəti əlamətdar bir hadisənin ərəfəsindədir. Bu il aprel ayının 28-də görkəmli Azərbaycan oftalmoloqu, ölkəmizdə tibb elminin və səhiyyənin inkişafında böyük xidmətlər göstərmiş, yüksək erudisiyalı, istedadlı tibb alimi – akademik Zərifə Əziz qızı Əliyevanın 100-illik yubileyi qeyd ediləcəkdir.

Zərifə xanım Əliyeva 1923-cü il aprel ayının 28-də Naxçıvan MR-in Şərur rayonunun Şaxtaxtı kəndində Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açmışdır.

Əziz Əliyev 1923-cü ilin may ayında ailəsi ilə birgə Bakı şəhərinə köçür və təhsilini o vaxt Azərbaycan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Tibb fakültəsində davam etdirir. Burada təhsilini 2-ci kursdan davam etdirən Əziz Əliyev 1927-ci ildə universiteti bitirir və qısa müddət ərzində bacarığına, işgüzarlığına görə diqqəti cəlb etdiyindən, 1929-cu ildə Xalq Səhiyyə Komissarının müavini vəzifəsinə təyin edilir. Daha sonra Azərbaycan Dövlət Tibb İnstitutuna da rəhbərlik edən və bir müddət Xalq Səhiyyə Komissarı vəzifəsində çalışan Əziz Əliyev dövrünün görkəmli ziyalılarından olan Üzeyirbəy Hacıbəyov, Mustafa bəy Topçubaşov, Müslüm Maqomayev, Səməd Vurğun, Mirəsədulla Mirqasımov, Sonaxanım Vəlixan, Abduləhəd Həsənov və başqaları ilə ailəvi dostluq münasibəti saxlayırdı. Bu şəraitdə böyüyən və dünyagörüşü belə mühitdə formalaşan Zərifə xanımın ömrünü elmi fəaliyyətə bağlaması qanunauyğun hal idi.

Zərifə xanım 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutuna (indiki Azərbaycan Tibb Universiteti) daxil olmuş və 1947-ci ildə institutu əla qiymətlərlə bitirərək həkim kimi əmək fəaliyyətinə başlamışdır. O dövrdə Azərbaycanda traxoma xəstəliyi geniş yayılmışdı və gözü zədələyərək korluğa səbəb olan bu yoluxucu xəstəliklə mübarizə respublika səhiyyəsinin ən mühüm problemi hesab edilirdi. Lakin bu xəstəliyə səmərəli təsir göstərən müalicə vasitəsi məlum deyildi. Alovlu vətənpərvər olan fitri istedada malik Zərifə xanım həmin illərdə bu bəlaya qarşı mübarizə aparmaq məqsədilə həyatını oftalmologiya sahəsi ilə bağlamaq qərarına gəlir. Zərifə xanım məhz bu məqsədlə Moskva şəhərində – Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik kurs keçərək oftalmologiya elminin sirlərinə yiyələnir və 1949-cu ildə kursu bitirərək vətənə qayıdıb, bir müddət Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda kiçik elmi işçi vəzifəsində işləyir, 1950-ci ildə isə

aspiranturaya daxil olub, praktik oftalmologiya sahəsində fəaliyyət göstərməklə bərabər, elmi tədqiqatla da məşğul olmağa başlayır, həm də ilk elmi araşdırmalarını traxoma xəstəliyinin müalicəsinə həsr edir.

Zərifə xanım əhalinin traxomaya yoluxmasının qarşısını almağın və bu xəstəliyin kökünü kəsməyin nə qədər çətin və mürəkkəb olduğunu yaxşı bilirdi. O, bütün qüvvə və bacarığını bu problemlə mübarizəyə həsr etdi və tezliklə böyük uğurlar qazandı. O, həmin dövrdə yenicə istehsalına başlanılan sintomisin preparatının traxoma xəstəliyinin müalicəsində effektivliyini sınaqdan keçirmək qərarına gəldi və tezliklə öz tədqiqatından aldığı uğurlu nəticələri klinik praktikaya tətbiq etməklə, respublikamızın oftalmoloqlarına traxomaya qalib gəlməyin yolunu göstərdi. Eyni zamanda Zərifə xanım elmi-tədqiqat işindən aldığı nəticələri ümumiləşdirərək, həm respublikada, həm də onun hüdudlarından kənarda nəşr edilən elmi jurnallarda məqalələr dərc etdirir, müxtəlif elmi konfrans və qurultaylarda məruzələrlə çıxış edərək sintomisin preparatının traxoma xəstəliyinin müalicəsində tətbiqini təbliğ edirdi. Onun bu sahədə apardığı tədqiqatın nəticələri 1958-ci ildə başa çatdırıb müdafiə etdiyi "Traxomanın sintomisinlə və onun digər müalicə metodlarının kombinasiyası vasitəsilə müalicəsi"[1] mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil etmişdir.

Zərifə xanım traxomanın müalicə və profilaktikasına həsr etdiyi elmi işini başa çatdırdıqdan və respublikada bu xəstəliyin əhəmiyyətli dərəcədə azalmasına nail olduqdan sonra oftalmologiyanın digər aktual problemlərinin həllinə yönəlmiş tədqiqat işlərinə başlayır. 1960-1967-ci illərdə Zərifə xanım Oftalmologiya İnstitutunun baş elmi işçisi vəzifəsində çalışmış, 1967-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun dosenti vəzifəsinə seçilmişdir. Qeyd etmək yerinə düşər ki, Həkimləri Təkmilləşdirmə İnstitutu o zaman Zərifə xanımın atası – görkəmli dövlət xadimi və səhiyyə təşkilatçısı Əziz Məmmədkərim oğlu Əliyevin (1897-1962) adını daşıyırdı. O, ömrünün son illərində həmin instituta rəhbərlik etmişdi.

Zərifə xanım Təkmilləşdirmə İnstitutunda elmi tədqiqatla məşğul olmaqla və xəstələrə yardım etməklə birlikdə institutun dinləyicilərinə oftalmologiyanın mühüm problemlərindən mühazirələr oxuyur, apardığı operativ müdaxilə üsullarını onlara öyrədirdi. Həmin dövrdə Zərifə xanımın elmi tədqiqatlarının əsas istiqamətləri görmə orqanının peşə patologiyası (gözün peşə xəstəlikləri) probleminə yönəlmişdi. O vaxtlar SSRİ-də istehsalat mənşəli zərərli amillərin ölkədə rast gəlinən xəstəliklərin inkişafında roluna dair bütün məlumatlar gizli saxlanılırdı. Onlar haqqında elmi və elmi-kütləvi nəşrlərdə məlumat verilməsi məhdudlaşdırılmışdı. Dərsliklərdə və dərs vəsaitlərində isə peşə xəstəliklərinin statistikası haqqında verilən məlumatlar yalnız xarici ölkələrin ədəbiyyatına əsaslanmaqla işaqlandırılırdı. Aydındır ki, bu şəraitdə peşə xəstəlikləri üzrə elmi-tədqiqat aparmaq müəyyən çətinliklərlə bağlı idi və elmi fəaliyyətin bu istiqaməti o qədər də perspektivli hesab edilmirdi. Lakin Zərifə xanım hər bir çətinliyə sinə gərməyi bacaran yüksək elmi potensiallı bir şəxs olduğundan, məhz belə bir sahə üzrə işləməyi üstün tutdu.

Zərifə xanım gözün peşə xəstəlikləri üzrə tədqiqat aparmaq məqsədilə bilavasitə sənaye mərkəzlərində olur, zərərli peşə sahələrində çalışan insanları oftalmoloji müayinədən keçirir, əsas diqqətini isə kimyəvi amillərin görmə orqanına zərərli təsirini öyrənməyə yönəldirdi. O, Bakı və Sumqayıt şəhərlərinin müxtəlif sənaye müəssisələrində, o cümlədən şin zavodunun sexlərində işləyənləri oftalmoloji müayinələrdən keçirir, aldığı nəticələrdən öz elmi işində istifadə edirdi. Bu təcrübələr ona zərərli kimyəvi maddələrin görmə orqanına

[1] Терапия трахомы синтомицином и в комбинации его с другими методами лечения: автореферат диссертации на соискание ученой степени кандидата медицинских наук / Зарифа Алиева. – Баку, 1958. – 15 с.

təsirinin qanunauyğunluqlarını aşkar etmək imkanı yaradırdı. Zərifə xanım elmi tədqiqatlarının nəticələrinə əsasən yazdığı "Azərbaycanın bəzi kimyəvi sənaye müəssisələrinin işçilərinin görmə orqanının vəziyyəti (klinik eksperimental tədqiqatlar)"[2] mövzusunda doktorluq dissertasiyasını başa çatdıraraq, 1976-cı ildə Moskva şəhərində yerləşən H.Helmholts adına Mərkəzi Elmi-Tədqiqat Göz xəstəlikləri İnstitutunda müdafiə etmiş və 1977-ci ildə SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə onun tibb elmləri doktoru alimlik dərəcəsi təsdiq edilmişdir.

Doktorluq dissertasiyasının müdafiəsindən sonra Zərifə xanım Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu oftalmologiya kafedrasının professoru vəzifəsinə seçildi, 1983-cü ildə isə kafedranın rəhbərliyi ona həvalə edildi. Bu təyinat Zərifə xanımın respublikada oftalmoloji xidmətin keyfiyyətini yüksəltməyə yönəlmiş fəaliyyətinə və bu sahədəki təşəbbüslərini effektiv şəkildə həyata keçirməyə daha əlverişli şərait yaratdı. Bundan əvvəl – 1977-ci ildə professor Z.Ə.Əliyevanın təşəbbüsü ilə Bakıda Ümumittifaq Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Belə bir tədbir Bakı şəhərində ilk dəfə keçirilirdi, plenuma hazırlığın və onun keçirilməsinin bütün ağırlığı Zərifə xanımın öhdəsinə düşürdü. Plenum uğurla keçirildi və keçmiş SSRİ-də oftalmologiyanın ən mühüm problemlərinin həllinə yönəlmiş bir sıra vacib qərarların qəbul edilməsi və tədbirlərin istiqamətlərinin müəyyənləşdirilməsi ilə tarixə düşdü. Bu plenumda Zərifə xanım görmə orqanının peşə xəstəliklərinin tədqiqi üzrə həyata keçirdiyi tədbirlər haqqında məruzə etdi və onun bu problemlə məşğul olan laboratoriya təşkil etmək təşəbbüsü bəyənildi. Nəticədə 1979-cu ildə Azərbaycan Elmlər Akademiyası nəzdində – A.İ.Qarayev adına Fiziologiya İnstitutunun bazasında görmə orqanının peşə patologiyası laboratoriyası yaradıldı və ona rəhbərlik Zərifə xanıma həvalə edildi. Bu laboratoriyanın işə başladığı dövrə qədər də Zərifə xanım görmə orqanının peşə xəstəliklərinin diaqnostika, müalicə və profilaktikasına dair məqalələrdən əlavə bir neçə metodik tövsiyə və monoqrafiya yazıb çap etdirmişdi. Bunlara "Yod sənayesində peşə xəstəliklərinin profilaktikası"[3] adlı monoqrafiyanı, "Yod sənayesi fəhlələrində gözün zədələnməsinin profilaktikası"[4] və "Rezin sənayesi fəhlələrində görmə orqanının zədələnməsinin profilaktikası"[5] adlı metodik tövsiyələri, "Azərbaycanın bəzi kimya sənayesi müəssisələri işçilərinin görmə orqanının vəziyyəti"[6], "Yod sənayesində peşə xəstəliklərinin profilaktikası"[7] adlı monoqrafiyaları misal göstərmək olar.

Görmə orqanının peşə xəstəliklərinin tədqiqi üzrə elmi-tədqiqat laboratoriyasının fəaliyyətə başlamasından sonra Zərifə xanım müvafiq sahə üzrə tədqiqatlarını daha da intensivləşdirdi və qısa müddət ərzində əməkdaşları ilə birgə apardığı tədqiqatların nəticələrinə əsaslanan "Şin istehsalatında gözün peşə patologiyası"[8], "Xronik yod intoksikasiyası

---

[2] Состояние органа зрения у работников некоторых предприятий химической промышленности Азербайджана (клинико-экспериментальное исследование): автореферат диссертации на соискание ученой степени доктора медицинских наук: 14.00.08 / Зарифа Алиева. – Москва, 1976. – 32 с.

[3] З.А.Алиева «Профилактика профзаболеваний в йодной промышленности». – Баку, «Азернешр», 1970

[4] З.А.Алиева «Профилактика повреждений глаз у рабочих йодовой промышленности» (методические рекомендации). – Баку, 1976

[5] З.А.Алиева «Профилактика глаз у рабочих резиновой промышленности» (методические рекомендации). – Баку, 1976

[6] З.А.Алиева «Состояние органа зрения у работников некоторых предприятий химической промышленности Азербайджана». – Баку, «Азернешр», 1977

[7] З.А.Алиева «Профилактика профессиональных заболеваний в йодной промышленности» (соавт. И.И.Алекперов, А.И.Замчалов) – Баку, «Азернешр», 1978, 43 с.

[8] З.А.Алиева «Профессиональная патология глаз в шинном производстве». – Баку, «Азернешр», 1980, 128 с.

zamanı oftalmopatologiya”[9] kimi monoqrafiyalar və çoxsaylı klinik tövsiyələr yazıb çap etdirdi.

Qeyd etmək lazımdır ki, Zərifə xanımın elmi maraqları təkcə görmə orqanının peşə xəstəlikləri ilə məhdudlaşmırdı. Onun müxtəlif göz xəstəliklərinin diaqnostikasına, müalicəsinə və profilaktikasına dair tədqiqat işlərinin nəticələrinə əsaslanan çoxsaylı məqalələri, monoqrafiyaları, dərslikləri və dərs vəsaitləri indiyə qədər öz elmi dəyərini və praktik əhəmiyyətini itirməmişdir. Bu əsərlər həm praktik oftalmoloqlar üçün, həm də oftalmologiya sahəsində tədqiqat aparan elmi tədqiqatçılar üçün olduqca böyük əhəmiyyətə malikdir.

Zərifə xanımın qələmindən ümumilikdə 150-yə yaxın elmi əsər, o cümlədən 12 monoqrafiya və dərslik çıxmışdır. O, Sovet İttifaqında istehsalat mənşəli zərərli maddələrin orqanizmə təsirinin öyrənilməsini ölkənin gündəminə gətirməklə bərabər, tibb ədəbiyyatında yer verilməyən daha bir tibbi istiqamətin – ənənəvi Şərq təbabəti üsulu olan iridodiaqnostika üsulunun da tətbiqinin pionerlərindən olmuş və həmmüəlliflərlə birgə bu mövzuda SSRİ-də ilk monoqrafiya yazıb çap etdirmişdir[10]. Zərifə xanımın həmmüəlliflərlə birgə yazdığı “Oftalmologiyanın aktual problemləri” kitabı indiyə qədər oftalmoloqların ən çox müraciət etdiyi tədris vəsaitlərindən biridir[11]. Heç təsadüfi deyil ki, bu kitab Zərifə xanımın vəfatından sonra həmmüəllifləri tərəfindən yenidən işlənilərək çap edilmişdir[12]. Bundan əlavə, 2011-ci ildə “Şərq-Qərb” nəşriyyatında Zərifə xanımın “Gözün və görmə siniri yolunun yaşla əlaqəli dəyişiklikləri: morfohistokimyəvi tədqiqat”[13], “İridodiaqnostikanın əsasları”, “Xronik yod intoksikasiyası zamanı oftalmologiya”, “Şin istehsalında gözün peşə patologiyası”, “Görmə orqanının peşə patologiyası” kitabları yenidən çap edilmişdir. Zərifə xanımın digər müəlliflərlə birgə yazdığı “Terapevtik oftalmologiya”[14] dərsliyi 1985-ci ildə Moskvanın “Медицина” nəşriyyatında çap edilmişdir və indiyə qədər postsovet ölkələrində oftalmologiyanın tədrisində uğurla istifadə edilir.

Zərifə xanım apardığı tədqiqat işlərinin yüksək elmi-praktik dəyərinə, yüksək səviyyəli pedaqoji qabiliyyətinə və qayğıkeşliyinə görə həm həmkarlarının, həm müalicə etdiyi xəstələrin, həm də bütün onu tanıyanların dərin hörmətini qazanmışdı. O həm də böyük ictimai iş aparırdı: keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin sədrinin müavini və “Bilik Cəmiyyəti ” idarə heyətinin üzvü, “Oftalmologiya xəbərləri” («Вестник офтальмологии») jurnalının redaksiya heyətinin üzvü idi. O, apardığı elmi-tədqiqatların aktuallığı nəzərə alınaraq, 1983-cü ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş, “Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdü, həm də bir sıra orden və medallarla təltif edilmişdi.

Professor Z.Ə.Əliyeva 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatı ilə təltif edilmişdir. O, bu mükafata layiq görülmüş ilk qadın idi. Zərifə xanımın M.İ.Averbax mükafatı ilə təltif edilməsi SSRİ-nin bir sıra tanınmış alimləri

---

[9] З.А.Алиева «Офтальмопатология при хронической йодовой интоксикации». – Баку, «Азернешр», 1981, 135 с.

[10] . З.А.Алиева, Е.С.Вельховер, Н.Б.Шульпина, Ф.Н.Ромашов «Основы иридодиагностики». – Баку, «Азернешр», 1982, 189 с.

[11] Актуальные проблемы офтальмологии [Н.Б.Шульпина, З.А.Алиева, Л.К.Мошетова]. – Баку, «Азернешр», 1983, 343 с.

[12] Актуальные проблемы офтальмологии: в 3-х томах [З.А.Алиева, Н.Б.Шульпина, Л.К.Мошетова]. – Баку, «Şərq-Qərb», 2011

[13] Возрастные изменения глаз и зрительного нервного пути: морфогистохимические исследования / З.А.Алиева, П.С.Меликасланова. – Баку, «Азернешр», 1980, 124 с.

[14] Терапевтическая офтальмология / З.А.Алиева, Н.Б.Шульпина, В.Гасилина и соавт. / Москва, «Медицина», 1985, 559 с.

tərəfindən razılıqla qarşılanmış və mətbuatda bu təltifat haqqında məqalələr verilmişdir.

Zərifə xanım eyni zamanda qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı olmuşdur. Onun həyat yollarında birgə addımladığı həyat yoldaşı ümummilli liderimiz, ulu öndər Heydər Əlirza oğlu Əliyev idi. Zərifə xanım iki övlad böyüdüb tərbiyə edərək Azərbaycan üçün layiqli vətəndaşlar yetişdirmişdir.

Təəssüflər olsun ki, Azərbaycan Respublikasının indiki prezidenti, Ali Baş Komandan İlham Əliyevin böyüyüb boya-başa çatmasında böyük rolu olan Zərifə xanım Əliyeva Azərbaycanın bu gününü – ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsini və iqtisadi uğurlarını görmədi. O, 1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat etdi. Zərifə xanım təkcə Azərbaycanda deyil, respublikamızın hüdudlarından kənarda da böyük nüfuz qazanmış bir alim idi. Heç də təsadüfi deyil ki, onun adı həm Azərbaycanda, həm də bəzi digər postsovet ölkələrində böyük hörmət və ehtiramla yad edilir. 2002-ci ildə Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutuna Zərifə Əliyevanın adı verilmişdir (bu İnstitut 2009-cu ildən Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi adlanır). Hazırda Bakı şəhərində Zərifə xanım Əliyevanın adına prospekt, Binəqədi rayonunda park vardır. 2008-ci ildə Zərifə Əliyevanın adını daşıyan bir gəmi-bərə Xəzər dənizinin sularına buraxılmışdır. Türkiyənin paytaxtı Ankara şəhərində, Bakının Binəqədi rayonunda, Qəbələ və İsmayıllı rayonlarında Zərifə Əliyevanın adını daşıyan park, Estoniyanın paytaxtı Tallin şəhərində və Ukraynanın İrpen şəhərində park və küçə vardır. 2009-cu ildə Estoniyanın paytaxtı Tallin şəhərində Zərifə Əliyeva adına Şərq Mədəniyyəti Xalq Universiteti təsis edilmişdir. Bunlardan əlavə, həm respublikamızda, həm də digər qonşu ölkələrdə çoxlu sayda tədris müəssisələri, mədəniyyət və istirahət parkları, uşaq baxçaları, oftalmoloji mərkəzlər Zərifə xanımın adını daşıyır. Bu gün Zərifə xanım aramızda olmasa da, onun xeyirxahlığı, tibb elmi və səhiyyə sahəsində xidmətləri daim Azərbaycan xalqının yaddaşındadır və onun əziz xatirəsi xalqımızın yaddaşında əbədi olaraq özünə yer tapmışdır.

**Teymur Musayev**
*Azərbaycan Respublikası Səhiyyə*
*naziri*